

**Vəlixanov Rövşən Aydın oğlu**

Rövşən Aydın oğlu Vəlixanov 1994-cü il oktyabrın 15-də Tovuz rayonunun Qaraxanlı kəndində anadan olub. 2001–2012-ci illərdə F. Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbində təhsil alıb.

Rövşən Vəlixanov 2012–2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin sentyabr ayının 8-dən hərbiçi kimi xidmətə başlamışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rövşən Vəlixanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Rövşən Vəlixanov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı itkin düşüb. Dekabrın 18-də şəhid olduğu müəyyənləşib. Tovuz rayonunun Qaraxanlı kəndində dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə kiçik çavuş Vəlixanov Rövşən Aydın oğlu "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.